**_16 mart 2020-ci il_**
*Komplayns üzrə Məsləhətçi/Ombudsmanın (CAO) ofisi*

# KOMPLAYNS ÜZRƏ QİYMƏTLƏNDİRMƏ: NƏTİCƏLƏRİN XÜLASƏSİ

*Trans-Anadolu Təbii Qaz Boru Kəməri (MİGA Layihəsi (13661 saylı), 2 saylı şikayət Azərbaycan*

## İcmal

26 oktyabr 2018-ci il tarixdə NHMT-nin (Neftçilərin Hüquqlarının Müdafiəsi Təşkilatı) dəstəyi ilə Azərbaycanın Şəmkir rayonunun Qaracəmirli kəndindən Şikayətçilər CAO-ya şikayətlə müraciət etmişdir. Şikayət həmin şəxslərin torpaq sahələrindən keçən CQBKG layihəsi çərçivəsində torpaq sahələri üçün təzminatın verilməsi və məsləhətləşmələr kimi məsələləri əhatə edir.

CQBKG Cənub Qaz Dəhlizi dəyər zəncirinin tərkib hissəsidir və Gürcüstan ərazisindən keçməklə Azərbaycandan Gürcüstan-Türkiyə sərhədinə gedir, oradan isə Trans-Anadolu Təbii Qaz Boru Kəmərinə (TANAP) bağlanır ("MİGA Layihəsi"). TANAP layihəsinə İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Agentlik (MİGA) tərəfindən dəstək göstərilmişdir[1]. MİGA TANAP layihəsində öz payını maliyyələşdirməsi üçün Azərbaycanın dövlət şirkəti olan Cənub Qaz Dəhlizi (CQD) Qapalı Səhmdar Cəmiyyətinə kommersiya bankları konsorsiumu ("Kreditorlar") tərəfindən verilmiş kredit üçün zəmanət vermişdir.

MİGA CQBKG layihəsini TANAP layihəsinin yardımçı mexanizmi kimi qəbul edir[2].

2019-cu ilin avqust ayında CQD Kreditorlara olan borcunu ödədikdən sonra MİGA zəmanəti ləğv olunmuşdur.

Sözügedən iş qiymətləndirmə üçün 2019-cu ilin sentyabr ayında CAO-nun Komplayns funksiyasına yönləndirilmişdir. MİGA layihəsinin 2019-cu ilin avqustunda bitməsinə baxmayaraq, CAO prosesi davam edir, çünki şikayətlər qəbul olunan vaxt MİGA layihəsi davam edirdi.

CAO-nun uyğunluq qiymətləndirməsinin məqsədi uyğunluqla bağlı araşdırmaların ətraf mühit və sosial nəticələrlə bağlı və ya MİGA-nın sistematik əhəmiyyəti məsələləri ilə bağlı ciddi məsələləri ortaya qoyan layihələrlə əlaqədar qiymətləndirmə aparılmasından ibarətdir. Araşdırmanın başladılıb-başladılmayacağına qərar verərkən CAO şikayətdə qaldırılan problemlərin miqyası, MİGA-nın bu məsələlərlə bağlı ƏS göstəricilərinin ilkin qiymətləndirmə nəticələri, habelə MİGA-nın tələblərinə adekvat sualların mövcudluğu və komplayns araşdırmasının müvafiq reaksiya olub-olmamasının ümumi qiymətləndirilməsi kimi faktorları ölçür.

Bu halda şikayətdə iqtisadi yerdəyişmə, məlumatların açıqlanması, icmanın iştirakı, o cümlədən yaşayış şəraitinin bərpası və təzminatla bağlı məsləhətləşməyə dair problemlər qaldırılır. Şikayətin əsasında duran faktların məhdud olduğu təqdirdə bu məsələlər əhəmiyyətli xarakterə malik ola bilər, belə ki, onlar çox sayda ev təsərrüfatının maddi vəziyyətinə təsir göstərə bilər.

---

[1] Layihənin təsviri ilə MİGA-nın veb-saytında tanış ola bilərsiniz: https://bit.ly/MİGA-Tanap-ProjectBrief.
[2] MİGA. 2017. Ətraf Mühit və Sosial Qiymətləndirmə Xülasəsi (ƏMSQX) (14 oktyabr 2016-cı il tarixli və 2 may 2017-ci ildə yenilənmişdir). Bu keçiddən əldə edə bilərsiniz: https://bit.ly/MİGA-TANAP-ESRS.

MİGA CQBKG layihəsini TANAP-ın yardımçı mexanizmi kimi qəbul edir. Lakin MİGA müəyyən etmişdir ki, ƏS tələbləri CQBKG-ni əhatə edəcək dərəcədə genişləndiriləcəkdir. Bu qərar ona əsaslanır ki, CQBKG TANAP-ın əməliyyat nəzarətinin və ya təsirinin olmadığı üçüncü tərəflər CQBKG-nin fəaliyyətini təmin edəcəkdir. CQBKG və TANAP-ın cavabdehlik strukturu nəzərə alındıqda CAO-nun MİGA-nın bu qənaətə gəlməsinə səbəb olmuş təhlilin dəqiqliyi ilə bağlı sualları vardır.

MİGA nə 2015-ci ildə aparılmış təhlildə, nə də MİGA layihəsinin monitorinqi çərçivəsində şikayətlə (CQBKG tərəfindən istifadə olunan torpağa görə nəzərdə tutulan təzminatla bağlı icmanın şikayətləri) əlaqədar məsələlər barədə ictimai hesabat verməmişdir. Bu reaksiyanın olmaması MİGA-nın CQBKG üzərində TANAP-ın əməliyyat nəzarəti və ya təsirə malik olmadığı barədə qənaətə gəlməsinə gətirib çıxarmışdır.

Bununla belə, CAO müəyyən etmişdir ki, şikayətin araşdırılması bu şikayətə adekvat reaksiya deyil. CAO aşağıdakıları nəzərə almışdır: (a) bu şikayətin verilməsinə səbəb olan köçürülmə prosesi MİGA-nın 2018-ci ilin iyun ayında TANAP layihəsi üçün zəmanət verməsinə qədər baş vermişdir; (b) MİGA-nın zəmanəti 2019-cu ilin avqustunda ləğv olunmuşdur; və (c) BYİB TANAP-la "əlaqədar layihələrin", o cümlədən CQBKG-nin müdafiə siyasətinin geri götürülməsi ilə bağlı İcraçı Direktorlar Şurasına müraciət etmişdir.

## CAO haqqında

Komplayns üzrə Məsləhətçi / Ombudsmanın (CAO) ofisi Beynəlxalq Maliyyə Korporasiyası (İFC) və İnvestisiyalara Zəmanət üzrə Çoxtərəfli Agentlik, habelə Dünya Bankı Qrupunun özəl sektor qolları üçün müstəqil hesabatlılıq mexanizmidir. CAO birbaşa Dünya Bankı Qrupunun prezidentinə tabedir və onun vəzifəsi BMK/MİGA-nın dəstəklədiyi layihələrin təsirinə məruz qalmış insanların şikayətlərinə ədalətli, qərəzsiz və konstruktiv şəkildə baxılması, habelə bu layihələrin sosial və ətraf mühit təsirlərini gücləndirməkdən ibarətdir.

CAO-nun məqsədi ədalətli, etibarlı və effektiv müstəqil müdafiə mexanizmi kimi çıxış etmək və bununla da İFC və MİGA-nın ətraf mühit və sosial göstəricilərini təkmilləşdirməkdir.

CAO üç unikal və bir-birini tamamlayan şöbədən ibarətdir – Mübahisələrin həlli, Komplayns və Məsləhətçilik. Bu üç funksiya BMK və MİGA layihələri ilə bağlı insanların şikayətlərinə baxılması və sistematik problemlərin həlli istiqamətində çevik mexanizmi formalaşdırır.

## CAO-nun Komplayns funksiyası haqqında

CAO-nun Komplayns funksiyası institutların ƏS göstəricilərinin təkmilləşdirilməsi məqsədilə BMK və MİGA investisiyalarına nəzarəti həyata keçirir.

Komplayns funksiyası CAO-nun şikayəti qiymətləndirməsindən sonra tərəflərdən birinin müraciəti əsasında və ya Mübahisələrin həlli prosesinin tərəflər arasında razılığın əldə olunmasına gətirib çıxarmadığı təqdirdə prosesə cəlb olunur. Komplayns funksiyası həmçinin CAO-nun Vitse-prezidenti, Dünya Bankı Qrupunun Prezidenti və ya BMK/MİGA-nın rəhbərliyi tərəfindən də başladıla bilər.

Komplayns araşdırmasından sonra CAO BMK və ya MİGA tərəfindən həyata keçirilmiş tədbirlərin onun komplayns nəticələrinin nəzərə alındığı təmin edilənədək monitorinq edilməli olduğuna qərar verə bilər[3].

CAO haqqında daha ətraflı məlumat üçün aşağıdakı keçidə daxil olun www.cao-ombudsman.org.

[3] CAO Əməliyyat təlimatı, 2013-cü il, paraqraf 4.4.6.

# Mündəricat

**İcmal** ..... 1

**Qısaltmalar** ..... 5

**I. Komplayns Qiymətləndirmə prosesinə ümumi baxış** ..... 6

**II. Ümumi məlumat** ..... 7

MİGA-nın zəmanəti ..... 7

Şikayət və CAO qiymətləndirməsi ..... 9

**III. Təhlil** ..... 10

MİGA-nın siyasət öhdəlikləri və tələbləri ..... 10

MİGA-nın Üçüncü tərəflərlə əlaqəli obyektlərlə bağlı siyasətinin əsası ..... 10

MİGA-nın ƏS təhlili ..... 11

MİGA Layihə monitorinqi ..... 13

MİGA Layihə bağlanışı ..... 14

**IV. CAO-nun qərarı** ..... 14

# Qısaltmalar

| Qısaltma | İzahı |
|---|---|
| AzCQBK | Azərbaycan Cənubi Qafqaz Boru Kəməri Ltd. |
| BOTAŞ | Boru Hatları ile Petrol Taşima A.Ş. |
| BP | Britiş Petroleum |
| CAO | Komplayns üzrə Məsləhətçi/Ombudsmanın ofisi |
| ƏS | Ətraf mühit və sosial |
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| ƏMSTQ | Ətraf Mühitə və Sosial Təsirlərin Qiymətləndirilməsi |
| ƏMSİS | Ətraf Mühit və Sosial İdarəetmə Sistemi |
| ƏMSQİ | Ətraf Mühit və Sosial Qiymətləndirmə İcmalı |
| BYİB | Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı |
| BMK | Beynəlxalq Maliyyə Korporasiyası |
| IFI | Beynəlxalq Maliyyə İnstitutu |
| MİGA | İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Agentlik |
| LQS | Layihə Qiymətləndirmə Sənədi |
| FS | Fəaliyyət standartı |
| PS1 | Fəaliyyət standartı 1: Ətraf mühit və Sosial risklərin, habelə onların təsirlərinin qiymətləndirilməsi və idarə olunması |
| CQBKG | Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi |
| SD2 | Şahdəniz layihəsinin 2-ci fazası |
| CQD | “Cənub Qaz Dəhlizi” QSC |
| ARDNŞ | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| TAP | Trans-Adriatik Boru Kəməri |
| TANAP | Trans-Anadolu Təbii Qaz Boru Kəməri |
| TPAO | *Türkiye Petrolleri Anonim Ortaklığı* [Türk Neft Korporasiyası] |
| DBQ | Dünya Bankı Qrupu |

# I. Komplayns Qiymətləndirmə prosesinə ümumi baxış

CAO BMK və ya MİGA layihəsi ilə bağlı şikayət qəbul etdikdə belə şikayət qiymətləndirilir. CAO tərəflərin medisaiya yolu ilə həllə nail ola bilmədiyi və ya bunu istəmədiyi ilə bağlı qənaətə gəldiyi təqdirdə, baxılması və araşdırılması üçün qeyd olunan iş CAO-nun komplayns prosesinə yönləndirilir.

Komplayns qiymətləndirilməsi ilə bağlı təşəbbüs CAO-nun Vitse-prezidenti, BMK/MİGA-nın rəhbərliyi və ya Dünya Bankı Qrupunun prezidenti tərəfindən də irəli sürülə bilər.

CAO komplayns prosesi BMK və MİGA-nın sifarişçilərinə deyil, onların özünə yönəlmişdir. Bu, BMK-nın bütün biznes fəaliyyətlərinə, o cümlədən daşınmaz əmlak sektoru, maliyyə bazarları və məsləhətçiliyə şamil olunur. Bir çox hallarda layihənin icrasının qiymətləndirilməsi və müvafiq tələblərə riayət olunması məqsədilə BMK/MİGA tərəfindən tədbirlərin görülməsi zamanı CAO-nun sifarişçinin fəaliyyətini qiymətləndirməsi və bu sahədə nəticələrini yoxlaması zəruri xarakter alır.

Komplayns araşdırmasına zəmanət verilib-verilməməsinə qərar vermək məqsədilə CAO ilk öncə komplayns qiymətləndirməsini həyata keçirir. Komplayns qiymətləndirmə prosesinin məqsədi komplayns araşdırmalarının yalnız ətraf mühit və (və ya) sosial nəticələrlə bağlı əhəmiyyətli məsələlərin və (və ya) BMK/MİGA üçün sistematik əhəmiyyət daşıyan məsələlərin qaldırıldığı layihələrlə bağlı həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Komplayns qiymətləndirmə prosesinə istiqamət vermək məqsədilə CAO bir sıra əsas meyarları tətbiq edir. CAO-nun aşağıdakıları müəyyən etməsi üçün bu meyarlar komplayns araşdırmasının həyata keçirilməsinin dəyərini yoxlayır:

- Hazırda və ya gələcəkdə potensial əhəmiyyətli mənfi ətraf mühit və ya sosial nəticənin (nəticələrin) olmasına dair sübutun olması.
- Siyasətə və ya qiymətləndirmə meyarlarına BMK/MİGA tərəfindən düzgün riayət olunmadığı və ya onların müvafiq qaydada tətbiq olunmadığının müşahidə edilməsi.
- BMK/MİGA-nın müddəalarının uyğun olmadığı və ya müvafiq səviyyədə müdafiəni təmin etmədiyinə dair faktların olması.

Qiymətləndirmə aparılarkən CAO BMK/MİGA-nın layihə göstəricilərinin təmin olunması, bu meyarlara uyğunluğun təmin olunması, bu müddəaların müvafiq səviyyədə müdafiəni təmin etməsi üçün hansı meyarlardan istifadə etdiklərini və ümumiyyətlə komplayns araşdırmasının adekvat reaksiya olub-olmadığını öyrənmək məqsədilə xüsusi layihə üzrə işləyən BMK/MİGA heyəti və digər maraqlı tərəflərlə işləyəcəkdir. Komplayns qiymətləndirməsi başa çatdıqdan sonra CAO işi bağlaya və BMK/MİGA-nın komplayns araşdırmasını başlada bilər.

CAO komplayns qiymətləndirməsini bitirdikdən sonra BMK/MİGA, Dünya Bankı Qrupunun prezidenti və İdarə Heyəti Şurası yazılı formada məlumatlandırılır. Komplayns qiymətləndirməsi işini CAO-nun mübahisələrin həlli funksiyasından ötürülməsi ilə nəticələndiyi təqdirdə, şikayətçi də yazılı formada məlumatlandırılacaqdır. Bütün qiymətləndirmə nəticələrinin xülasəsi ictimaiyyətə açıq olacaqdır. CAO komplayns qiymətləndirməsinin nəticəsi olaraq, komplayns araşdırmasının başlanması ilə bağlı qərar verdiyi təqdirdə CAO öz Əməliyyat Təlimatlarına uyğun şəkildə komplayns araşdırması üçün texniki tapşırıq tərtib edəcəkdir.

# II. Ümumi məlumat

## MİGA-nın zəmanəti

27 iyun 2018-ci il tarixində MİGA Türkiyədə Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) layihəsinə dəstək olaraq 780 mln. ABŞ dolları və 286 mln. avro (təqribən 331 mln. ABŞ dolları) məbləği əhatə edən zəmanət təqdim etməyə razılıq verir. On beş illik bu zəmanət TANAP layihəsində öz payını maliyyələşirməsi üçün Azərbaycanın dövlət şirkəti olan Cənub Qaz Dəhlizi (CQD) QSC-yə Crédit Agricole Corporate, Investment Bank, Société Générale, Citibank N.A., Banco Santander, S.A., və AKA Ausfuhrkredit-Gesellschaft mbH-dan (birlikdə "Kommersiya bankları" və ya "Kreditorlar") olan qeyri-səhmdar borcları əhatə edir.[4]

MİGA-nın zəmanəti Kreditorlarla birbaşa müqavilə münasibətlərini formalaşdırmışdır. Bu zəmanət CQD ilə heç bir birbaşa müqavilə razılaşması tələb etməmişdir. Lakin zəmanət müqaviləsinə daxil olan bəzi müddəalar kredit müqaviləsi vasitəsilə kreditorlardan keçməlidir. Buraya ƏS müddəaları, ətraf mühit təlimatları, o cümlədən Ətraf Mühit və Sosial Fəaliyyət Planı daxildir.

MİGA layihəni A kateqoriyasına uyğun olaraq hazırlamışdır. Bu kateqoriyaya daxil olan layihə müxtəlif, geri dönüşü olmayan və ya təkrarsız potensial mənfi ətraf mühit və ya sosial risklər təşkil edir[5].

TANAP boru kəməri ilkin olaraq Azərbaycanın Şahdəniz qaz yatağından qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya vasitəsilə İtaliyaya nəql etmək üçün tikilmiş Cənub Qaz Dəhlizi adlanan daha böyük dəyər zəncirinin bir hissəsidir. Cənub Qaz Dəhlizinə aşağıdakılar daxildir: (i) Azərbaycanın Şahdəniz qaz yatağı (BP tərəfindən istismar edilir), (ii) Cənubi Qafqaz Boru Kəməri (CQBK), habelə onun Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyədək genişləndirilməsi (CQBKG), (iii) Türkiyə vasitəsilə Yunanıstana TANAP boru kəməri, və (iv) Yunanıstan, Albaniya və Adriatik dənizi vasitəsilə Cənubi İtaliyaya Trans-Adriatik Boru Kəməri (TAP).

MİGA-nın zəmanəti sırf Cənub Qaz Dəhlizinin TANAP hissəsi ilə bağlı verilsə də, Şahdəniz qaz yatağı və CQBKG (Azərbaycan və Gürcüstan ərazisindən keçən) Layihənin əlaqəli təsərrüfat hesab edilir.[6]

CQD – səhmdarları Azərbaycan Respublikası Energetika Nazirliyi (51%) və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (49%) olan qapalı səhmdar cəmiyyətdir[7]. Layihə boru kəmərinin tikintisi, mülkiyyəti və istismarı məqsədilə TANAP Doğalgaz İletim A.Ş (xüsusi təyinatlı şirkət) tərəfindən hazırlanmışdır. Səhmlərin 58%-i CQD-yə məxsusdur. Digər səhmdarlara isə Türkiyənin dövlət qaz şirkəti olan BOTAŞ və BP daxildir. BP həm də Azərbaycanın Şahdəniz qaz yatağını istismar edir.

CQBKG layihəsi CQD (6,7%), Azərbaycan Cənubi Qafqaz Boru Kəməri (ARDNŞ-in törəmə müəssisəsi, 10%), TPAO (Türk Neft Korporasiyası, 10%), BP (28,8%) və digərlərinin daxil olduğu konsorsium tərəfindən idarə olunur. BP tərəfdaş şirkətlərin adından CQBKG layihəsini idarə edir və Cənubi Qafqaz Boru Kəməri Şirkətinin texniki operatorudur.

Aşağıdakı Cədvəl 1 TANAP və CQBKG layihələri ilə bağlı MİGA zəmanətinin təsviri.

---

[4] MİGA layihəsi haqqında qısa məlumat üçün aşağıdakı keçidə bax: https://bit.ly/MİGA-Tanap-ProjectBrief.
[5] MİGA, 2013. Ətraf Mühit və Sosial Dayanıqlılıq Siyasəti, paraqraf 38. Aşağıdakı keçidə bax: https://bit.ly/2TaU0Ye
[6] MİGA. 2017. Ətraf Mühit və Sosial Qiymətləndirmə İcmalı (14 oktyabr 2016-cı il; 9 may 2017-ci ildə yenilənmişdir). Aşağıdakı keçidə bax: https://bit.ly/MİGA-TANAP-ESRS.
[7] CQD-nin saytına bax: https://www.sgc.az/en/about

**Cədvəl 1. TANAP və CQBKG ilə bağlı MİGA zəmanətinin təsviri**[8]




[8] Cədvəl TANAP-01 işi ilə bağlı CAO-nun Qiymətləndirmə hesabatından götürülmüşdür. TANAP layihəsinin idarə olunması ilə bağlı məlumatlar Dünya Bankının https://bit.ly/2tljodP keçidində tanış ola biləcəyiniz 2016-cı il tarixli Layihə Qiymətləndirməsindən (LQS, 1665) və Trans-Anadolu Təbii Qaz Kəməri (TANAP) ilə bağlı ARDNŞ Midstrim veb-saytından (https://goo.gl/3ftrFe) götürülmüşdür. CQBKG layihəsinin idarə olunması ilə bağlı məlumatlar isə BP Azərbaycanın veb-saytından (https://goo.gl/KMutFp); Asiya İnkişaf Bankının 2016-cı il hesabatından və Direktorlar Şurasının prezidentinin tövsiyələrindən götürülmüşdür: Şahdəniz Qaz Yatağının Genişləndirilməsi layihəsi (Azərbaycan) [Layihə nömrəsi: 49451-002] üçün qismən kredit zəmanəti (https://goo.gl/Bx1yhM). "AYİB"in veb-saytında "ARDNŞ – Cənubi Qafqaz Qaz Boru Kəməri" bölməsinə aşağıdakı keçiddə bax: https://goo.gl/YV9ArH.

Beynəlxalq maliyyə institutları (BMİ-lər) TANAP daxil olmaqla Cənub Qaz Dəhlizinin bəzi layihələrini dəstəkləyirlər. 2016-cı ilin dekabr ayında Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının (BYİB) İcraçı Direktorları və MİGA-nın Direktorlar Şurası TANAP layihəsi ilə bağlı BYİB tərəfindən təklif olunan krediti və MİGA tərəfindən təklif olunan zəmanəti birgə təsdiq etmişdir[9]. CQBKG heç bir BMİ tərəfindən dəstəklənmir.

MİGA-nın verdiyi məlumatlara əsasən, CQD Kreditorlara borcunu gözlənildiyindən əvvəl ödəmişdir. Nəticə etibarilə, 2019-cu ilin avqust ayında MİGA-nın zəmanəti ləğv olunmuşdur.

## Şikayət və CAO qiymətləndirməsi

Şikayət

26 oktyabr 2018-ci il tarixində NHMT-nin (Neftçilərin Hüquqlarının Müdafiəsi Təşkilatı) dəstəyi ilə Azərbaycanın Şəmkir rayonunun Qaracəmirli kəndindən Şikayətçilər CAO-ya şikayətlə müraciət etmişdir. Şikayət həmin şəxslərin torpaq sahələrindən keçən CQBKG layihəsi çərçivəsində torpaq sahələri üçün təzminatın verilməsi və məsləhətləşmələr kimi məsələləri əhatə edir.

CAO-nun Qiymətləndirmə hesabatına əsasən [10], şikayətçilər CQBKG boru kəmərinin quraşdırılması ilə bağlı dörd məsələyə dair problem qaldırırlar: (a) torpağın icarəsinə görə təzminatın verilməməsi; (b) torpağın üzərində olan məhsula görə qismən təzminatın verilməsi; (c) icazə müqavilələrini imzalamağa məcbur edilmə, o cümlədən ödənişlərin gecikməsi və valyutanın devalvasiyası nəticəsində mənfəət itkisi; və (d) qeyri-adekvat məsləhətçilik.

Şikayətçilər iddia edir ki, onlara CQBKG boru kəmərinin keçdiyi torpaqlarına görə təzminat verilməmiş və yalnız torpağın üzərində olan məhsula görə qismən təzminat təmin edilmişdir. Onlara BP tərəfindən bildirilmişdir ki, bələdiyyə tərəfindən onlara təqdim edilmiş sənədlər saxtadır və icarə müqabilində təzminat almaq hüquqları yoxdur. Onlar qeyd edirlər ki, torpaqla bağlı mülkiyyət məsələsi əvvəlki boru kəmərlərinin tikintisi zamanı mübahisə predmeti olmamışdır. Onlara üzərində məhsul yetişdirdikləri torpaqlardan istifadəyə icazə verilmişdir, lakin bələdiyyə mülkiyyəti təsdiq etmək üçün sənəd verməkdən imtina etmişdir.

Bununla yanaşı, şikayətçilər iddia edir ki, torpaq sahələrinin koordinatları ilə bağlı şirkət mübahisə etdiyindən onlara məhsullarına görə qismən təzminat verilmişdir, belə ki, bəzi hallarda peyklə çəkilmiş görüntülər bütün becərilmiş torpaqları əks etdirmir.

Şikayətçilərin dediyinə görə, onlara CQBKG boru kəməri haqqında kifayət qədər məlumat verilmiş və icarə müqavilələrini imzalamaq üçün təzyiq göstərilmişdir. Həmçinin, onlar qeyd edirlər ki, onların torpaqlarının boru kəməri ilə bağlı 51 illik icarə müqaviləsi çərçivəsində ödənişlərlə yanaşı, BP ilə icarə müqavilələri üç illik tikinti və torpaqdan istifadə məhdudiyyətlərinə qarşı itkiləri qarşılamalıdır. Onlar həm də ödənişlərin gecikməsi və həmin müddətdə Azərbaycanın milli valyutasının devalyasiyası səbəbilə yaranmış mənfəət itkilərinə görə də təzminata iddia edirlər.

Şirkətin mövqeyi

BP təsdiq edir ki, o, saxta sənədlərlə bağlı problemlərdən məlumatsız olub və torpağın icarəsinə görə təzminatı torpağın rəsmi mülkiyyətçisi kimi bələdiyyəyə ödəmişdir. Onların verdiyi məlumata əsasən torpağın üzərində olan məhsul həcminin müəyyənləşdirilməsi üçün sahə fotoşəkillərindən və peyk görüntülərindən istifadə edilmişdir. Onlar həm də iddia edirlər ki, icma üzvlərinin layihənin əhatə dairəsinə daxil olan torpaqlarının mülkiyyət sənədlərini alması istiqamətində köməklik göstərməsi üçün Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsinin xidmətlərindən də istifadə

[9] Dünya Bankı. 2016. Azərbaycan və Türkiyə – Trans-Adriatik Boru Kəməri Layihəsi (ingilis dilində) [LQS 1665]. Aşağıdakı keçidə bax: https://bit.ly/2tljodP.
[10] CAO Qiymətləndirmə hesabatı, Avqust 2019. Aşağıdakı keçidə bax: https://bit.ly/TANAP-02.

olunmuşdur. Verilən məlumata əsasən, şikayət mexanizmi olduğu halda, yalnız bir şikayətçi şikayətlə bağlı müraciət etmişdir.

BP qeyd edir ki, yerli valyutada ödəniş Azərbaycan qanunvericiliyinin tələbidir. Təzminat məbləği 2014-cü il təlimatlarında qeyd olunan qaydada müəyyən edilmişdir. Ödənişin vaxtına gəldikdə isə, icarə müqavilələrində ödəniş 2016-cı ilin fevral ayına kimi və ya BP-nin həmin torpaq sahəsinə daxil olduğu tarixdə (hansı daha gec olarsa) müəyyən edilir və bildirilir ki, bütün sakinlərə ödəniş torpaq sahəsinə daxil olunmazdan əvvəl edilmişdir.

CAO qiymətləndirməsindən sonra Şirkət mübahisələrin həlli prosesini həyata keçirməməyi qərara almış və şikayət müvafiq qaydada qiymətləndirilməsi üçün 2019-cu ilin sentyabr ayında CAO-nun komplayns funksiyasına göndərilmişdir.

# III. Təhlil

## MİGA-nın siyasət öhdəlikləri və tələbləri

MİGA-nın zəmanət layihəsi onun Ətraf Mühit və Sosial Dayanıqlılıqla bağlı 2013-cü il siyasəti (Dayanıqlılıq siyasəti)[11] və Fəaliyyət Standartlarına (FS)[12] əsasən hazırlanmışdır. 2013-cü il tarixli Ətraf Mühit və Sosial Qiymətləndirmə Təlimatı (ƏMSQT) ƏS təhlili və monitorinqi ilə bağlı daxili təlimatları müəyyən edir. Dayanıqlılıq siyasətinə əsasən, MİGA "insanlara və ətraf mühitə "heç bir zərər verməmək" məqsədi daşıyan layihələrə və investisiya fəaliyyətlərinə" dəstək vermək öhdəliyini götürmüşdür (paraqraf 9). Həmçinin, Fəaliyyət standartları "işçilərə, icmalara və ətraf mühitə olan mənfi təsirlərin proqnozlaşdırılması və qarşısının alınması, qarşısı alına bilmədikdə isə minimallaşdırılması, təsirləri qaldıqda isə, risk və təsirlərin müvafiq qaydada təzminatı"na yönəlmişdir (Dayanıqlılıq Siyasəti, paraqraf 5).

Risklərin müəyyən edilməsinə gəldikdə isə, Dayanıqlılıq siyasətində qeyd olunur ki, Dünya Bankı Qrupuna daxil olan hər hansı qurum layihədə iştirak etdiyi təqdirdə "MİGA DBQ-nin ortaq təlimatına uyğun olaraq həmin qurumun ətraf mühit standartlarına, ətraf mühit və sosial təhlillərinə və (və ya) monitorinqinə əsaslana bilər" (paraqraf 6).

## MİGA-nın Üçüncü tərəflərlə əlaqəli obyektlərlə bağlı siyasətinin əsası

MİGA-nın 2013-cü il tarixli Fəaliyyət standartları layihənin təsir dairəsinə daxil olan ƏS risk və təsirlərinin müəyyən edilməsini tələb edir. Buraya "layihənin tərkib hissəsi olaraq maliyyələşməyən, habelə layihə mövcud olmadıqda qurula və ya genişləndirilə bilməyən və onsuz layihənin səmərəsiz olacağı" əlaqəli obyektlərə aid risk və təsirlər daxildir (ƏS 1, paraqraf 8). Əlaqəli obyektlərə "dəmir yolları, avtomobil yolları elektrik stansiyaları və ya ötürücü xətlər, boru kəmərləri, kommunal xətlər, anbarlar və logistik terminallar" daxildir (ƏS 1, paraqraf 8, FN15).

Əlaqəli obyektlərdə ƏS risklərinin idarə olunması aspektləri ilə bağlı üçüncü tərəflərin cavabdehlik daşıdığı hallarda ƏS 1-də qeyd edilir ki, "Effektiv ƏMSİS cəlb olunmuş müxtəlif qurumları və onların oynadığı rolları, onların sifarişçiyə verdiyi müvafiq riskləri, habelə Fəaliyyət standartları ilə uyğun olan ətraf mühit və sosial nəticələrin əldə edilməsinə kömək məqsədilə üçüncü tərəflərlə əməkdaşlıq imkanını müəyyən etməlidir" (paraqraf 2). Həmçinin üçüncü tərəflərin fəaliyyətləri nəticəsində risk və təsirlər meydana gəldikdə, ƏS 1 sifarişçidən "üçüncü tərəflər üzərində nəzarət və təsirə və maraqların ziddiyyətinin təhlilinə uyğun qaydada bu risk və təsirlərin aradan qaldırılmasını" tələb edir (paraqraf 9).

---

[11] MİGA. 2013. Ətraf Mühit və Dayanıqlılıq Siyasəti. Aşağıdakı keçidə bax: https://bit.ly/MİGA-Sustain-Policy-2013.
[12] MİGA. 2013. Ətraf Mühit və Dayanıqlılıq Siyasəti. Aşağıdakı keçidə bax: https://bit.ly/MİGA-Sustain-Policy-2013.

MİGA zəmanətinin sahibinin (yəni MİGA-nın sifarişçisi[13]) layihə müəssisəsi üzərində nəzarəti olmayan kreditor olduğu təqdirdə, MİGA sifarişçidən mövcud şəraitin imkan verdiyi həddə aşağıdakıları tələb edir: i) Layihə müəsissəsi ilə razılaşmaların və ya MİGA-nın ətraf mühit və sosial standartları ilə uyğunluq tələb edən digər razılaşmaların kredit sənədlərinə daxil edilməsi; və (ii) bu razılaşmaların Layihə müəssisəsi tərəfindən icrasının təmin edilməsi (Dayanıqlılıq siyasəti, paraqraf 2, FN1). Həmçinin Dayanıqlılıq siyasətində qeyd olunur ki, "öz təhlil prosesi çərçivəsində MİGA Sifarişçi tərəfindən müəyyən olunan üçüncü tərəf risklərini yoxlayacaq və Sifarişçinin fəaliyyətlər üzərində nəzarət və ya təsir imkanına malik olmadığı təqdirdə onların idarə oluna bilib-bilinmədiyini, idarə oluna biləcəyi halda bunun hansı şərtlər altında mümkünlüyünü müəyyən edəcəkdir" (paraqraf 21). Burada qeyd olunur ki, bəzi risklər MİGA-dan təklif olunan layihəni dəstəkləməkdən imtina etməyi tələb edə bilər.

ƏMSQP-nin üçüncü tərəflərin fəaliyyətləri ilə bağlı bölməsinə əsasən, sifarişçi üçüncü tərəfin fəaliyyətləri və davranışları üzərində nəzarət və ya təsir imkanına malik deyilsə və bu fəaliyyətlərlə bağlı ƏS riskləri və (və ya) təsirləri yüksəkdirsə, "fərdi qaydada xüsusi tələb və tədbirlər müəyyən oluna bilər" (paraqraf 2.5).

## MİGA-nın ƏS təhlili

BYİB MİGA-nın iştirakından əvvəl TANAP layihəsinin ətraf mühit və sosial təhlilini aparmışdır. BYİB VQBKG-nin TANAP-ın əlaqəli mexanizmi olduğunu müəyyən etsə də, İcraçı Direktorlar Şurasına CQBKG daxil olmaqla əlaqəli layihələrlə bağlı müdafiə siyasətinin geri götürülməsi barədə müraciət etmişdir[14]. Layihə Qiymətləndirmə Sənədinə (LQS) əsasən müdafiə siyasətinin geri götürülməsinin əsasında duran amil odur ki, "Bank aşağıdakılarla bağlı heç bir gözləntiyə malik deyil: (a) Əlaqəli layihələrlə bağlı bütün sənədləşmələrə çıxış əldə olunması; (b) əlaqəli layihələrə nəzarətdə iştiraka imkan verilməsi; və ya (c) əlaqəli layihələrlə bağlı müdafiə alətlərində uyğunsuzluq olduqda Bankın ətraf mühit və müdafiə siyasətlərinin düzgün qaydada tətbiqi üçün zəruri olan profilaktik tədbirləri görməyə imkan verəcək hüquqi mexanizmin razılaşdırılması[15]."

LQS-də qeyd olunur ki, yuxarıda sadalanan mühakimələr aşağıdakılara əsaslanır:

(a) Əlaqəli layihələrin idarəetmə strukturu TANAP layihəsində olduğundan fərqlidir. BOTAŞ [BYİB-in sifarişçisi] hər hansı əlaqəli layihədə səhmdar deyil. CQD SD2 və CQBKG-də 6,7%, TAP-da isə 20% payla kiçik səhmdardır;

(b) Bank əlaqəli layihələrin heç birinin maliyyələşdirilməsində iştirak etmir;

(c) Üç əlaqəli layihədən ikisi irəli mərhələdədir, üçüncü isə tikintiyə yeni başlamışdır; və

(d) Bank əlaqəli layihələrlə bağlı müdafiə məlumatlarına müəyyən qədər çıxış əldə etməyə nail olsa da, ona bildirildi ki, digər layihələrin məxfilik məsələləri ilə əlaqədar tam çıxışın verilməsi mümkün deyil[16].

LQS-də qeyd olunur ki, "TANAP və digər investisiyalar arasında əlaqə nəzərə alınmaqla, BYİB bu əlaqəli layihələrin Ətraf mühitə və sosial təsirin qiymətləndirilməsi"[17] (ƏMSTQ) ilə yanaşı

---

[13] MİGA-nın 2013-cü il Dayanıqlılıq Siyasətində sifarişçi "kontekstə uyğun olaraq Layihə şirkəti və ya zəmanət sahibi (bu anlayışlar MİGA-nın Zəmanət Müqaviləsində rəsmi qaydada müəyyən olunur) və ya MİGA tərəfindən zəmanət verilən hər hansı kreditin debitoru kimi müəyyən olunur. Layihə şirkəti Fəaliyyət Standartlarının tətbiqi üçün zəruri tədbirlərin görülməsini təmin edir (paraqraf 2, FN1).

[14] BYİB aşağıdakı OP/BP-lərlə bağlı geri götürülmə üçün müraciət etmişdir: 4.01 (Ətraf mühitin qiymətləndirilməsi), 4.04 (Təbii yaşayış sahələri), 4.36 (Meşələr), 4.09 (Zərərvericilərlə mübarizə), 4.11 (Maddi və mənəvi resurslar), 4.12 (Məcburi köçürülmə) və 4.37 (Bəndlərin təhlükəsizliyi). Aşağıdakı OP/BP-lər üçün müdafiə siyasətlərinin geri götürülməsi nəzərdə tutulmamışdır: 4.10 (Yerli insanlar) və ya OP/BP 7.60 (Mübahisəli ərazilər). İstinad mənbələri: Dünya Bankı. 2016. Azərbaycan və Türkiyə - Trans-Adriatik Boru Kəməri Layihəsi (ingilis dilində) [LQS 1665], paraqraf 113, FN4. Aşağıdakı keçidə bax: https://bit.ly/2tljodP

[15] Ibid., paraqraf 113.

[16] Ibid., paraqraf 114.

[17] Ibid., paraqraf 115.

potensial risk səviyyələri və idarəetmə sistemlərinin təhlilini aparmışdır. BYİB-in Əsasən ictimaiyyətə açıq məlumatlara əsaslanan qiymətləndirməsində belə qənaətə gəlinmişdir ki, əlaqəli layihələrin ƏMSTQ-ləri əsasən Bankın müdafiə prosedurlarına uyğundur və yüksək keyfiyyətdədir[18].” Qiymətləndirmədə “heç bir komplayns məsələsi qeyd olunmamış” və əlaqəli layihələrin “risklərə uyğun, yaxşı planlaşdırılmış, habelə Bankın ətraf mühit və sosial müdafiə siyasətinin tələblərinə müvafiq sənəd və prosedurlarla icra edilmiş” olduğunu müəyyən etmişdir[19].”

LQS-də CQBKG daxil olmaqla əlaqəli layihələrdə torpaqların alışı və sosial təsirlər xüsusilə müzakirə olunur[20]. Burada qeyd olunur ki, bu layihələrdə fiziki köçürülmə yoxdur və müsadirə tədbirlərinin əksəriyyəti 3 illik tikinti müddəti üzrə müvəqqəti xarakter daşıyır. Bu sənədə əsasən, layihələrdə torpaqların alışı yerləşmə ölkələsinin hökuməti ilə razılaşmalara uyğun şəkildə aparılmışdır. Sənəddə həm də qeyd olunur ki, layihələrdə torpaqların alışı ilə bağlı prosesi, prosedurları, təzminat və şikayət mexanizmini müəyyən edən və bütün torpaq mülkiyyətçilərinə bildirilən təlimat mövcuddur. Bütün layihələrdə şikayətlərə baxılmaya dair daxili mexanizm mövcuddur və CQBKG ilə bağlı həm şifahi, həm də yazılı şikayətlər araşdırılır. Qeyd olunmalıdır ki, şikayətlərin əksəriyyəti məhsullara və sahibsiz torpaqlara görə ödənilməli təzminatla bağlıdır.

MİGA-nın ƏS təhlili təsdiq etmişdir ki, BYİB-in ƏS təhlili lazımi keyfiyyətdədir. Dünya Bankı Qrupuna daxil olan hər hansı qurum (indiki halda BYİB) layihədə iştirak etdikdə “MİGA DBQ-nin ortaq təlimatına uyğun olaraq həmin qurumun ətraf mühit standartlarına, ətraf mühit və sosial təhlillərinə və (və ya) monitorinqinə əsaslana bilər” (Dayanıqlılıq siyasəti, paraqraf 6).

MİGA-nın Ətraf Mühit və Sosial Qiymətləndirmə İcmalı (ƏMSQİ) müəyyən etmişdir ki, CQBKG-nin ƏS göstəriciləri MİGA-nın zəmanətinin təsir dairəsindən kənara çıxır. ƏMSQİ-də qeyd olunur ki, Fəaliyyət Standartı 1-ə və əlaqəli layihələrlə bağlı BYİB-in yanaşmasına əsasən, MİGA-nın ƏS tələbləri əlaqəli mexanizmləri əhatə edəcək dərəcədə genişləndirilməyəcəkdir. Bu layihələr TANAP-ın əməliyyat nəzarətinə və ya təsir imkanına malik olmadığı üçüncü tərəflərin sərəncamındadır[21].”

CAO qeyd edir ki, CQBKG ilə bağlı torpaq təzminatı məsələləri 2015-ci ildə[22] ictimaiyyətə açıqlanmışdır. BYİB öz LQS-ində məhsullara görə təzminat və ya sahibsiz torpaqlarla bağlı heç bir şikayətin daxil olmadığını qeyd etsə də, CAO bu mövqenin doğruluğunu yoxlamaq üçün əlavə sənədlərə çıxış imkanına malik olmamışdır.

Nəzarət və təsirin müəyyən edilməsi

MİGA CQD-nin TANAP-la əlaqəli mexanizmlər, eləcə də CQBKG ilə bağlı nəzarətini təhlil etmişdir. MİGA-nın qiymətləndirməsində vacib məqam ondan ibarətdir ki, CQD bütün əlaqəli mexanizmlərdə kiçik səhmdar mövqeyinə malikdir. Xüsusilə CQBKG ilə bağlı yalnız 6,7% paya malikdir və bununla da CQBKG əməliyyatları üzərində təsir imkanına malik deyil.

MİGA qeyd edir ki, digər BMİ-lərlə əməkdaşlıq və məlumat mübadiləsi ilə bağlı koordinasiya sahəsində CQD-nin TANAP layihəsi ilə əlaqəli mexanizmlər üzərində təsiri məsələsini araşdırmışdır[23]. Həmçinin qeyd olunur ki, BMİ koordinasiyası CQBKG-da təsir imkanı ilə bağlı perspektiv vəd edə bilər, çünki heç bir BMİ CQBKG-yə dəstək göstərmir.

---

[18] Ibid., paraqraf 115.
[19] Ibid., paraqraf 116.
[20] Ibid., paraqraf 116–117.
[21] MİGA. 2017. Ətraf Mühit və Sosial Qiymətləndirmə İcmalı (9 may 2017-ci ildə yenilənmişdir).
[22] Yaşıl Alternativ. 2015. Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi Layihəsi (CQBKG) və torpaqların alışı ilə bağlı Gürcüstan təcrübəsi. Bu hesabatdakı məlumatlar CQBKG-nin Gürcüstan sektoruna aid olsa da, burada müzakirə olunan məsələlər CAO şikayətində qaldırılmış məsələlərlə müqayisə oluna bilər. Aşağıdakı keçidə bax: https://bit.ly/GreenAlt-2015-CQBKG.
[23] Dünya Bankı. 2016. Azərbaycan və Türkiyə – Trans-Adriatik Boru Kəməri Layihəsi (ingilis dilində) [LQS 1665], paraqraf 116. LQS-də qeyd olunur ki, “Bankın heyəti əməkdaşlıq və bununla bağlı məlumat mübadiləsi məqsədilə digər BMİ-lərlə koordinasiyaya çalışacaqdır” (paraqraf 116). Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və Avropa İnvestisiya Bankı TANAP və digər

MİGA qeyd etmişdir ki, özünün təhlili çərçivəsində CQBKG ilə məşğul olmamışdır. O, həmçinin bildirmişdir ki, CQD-dən digər əlaqəli layihələrin yaratdığı ƏS risklərinin müəyyən edilməsinin TANAP layihəsinin ƏMSİS-nə daxil edilməsi tələb olunmur, çünki LQS-də bu təhlil mövcuddur.

CAO-nun verdiyi məlumata əsasən, əlaqəli layihələrlə bağlı LQS-də aparılan müzakirələr istisna olmaqla MİGA CQD-nin TANAP layihəsi ilə əlaqəli layihələr, o cümlədən CQBKG üzərində potensial təsirinin təhlilini özündə ehtiva edən heç bir sənəd təqdim etməmişdir.

MİGA "Fəaliyyət standartlarına (FS 1, paraqraf 2) uyğun ətraf mühit və sosial nəticələrin əldə olunmasına kömək məqsədilə" TANAP layihəsinin səhmdarları ilə (CQD istisna olmaqla) özünün əlavə layihələr üzərində Fəaliyyət Standartlarının genişləndirilməsi və ya TANAP-la əlaqəli layihələr arasında məlumat mübadiləsi perspektivi barədə iş aparmamışdır. MİGA əlaqəli layihələrdən olanlar daxil olmaqla üçüncü tərəflərin yaratdıqları risklərin idarə oluna biləcəyi şəraitin təhlilini və ya bəzi risklərin MİGA-nın layihəyə olan dəstəyini dayandırmasını tələb edib-etməyəcəyi ilə bağlı müzakirələri təqdim etməmişdir (Dayanıqlılıq siyasəti, paraqraf 21).

CAO TANAP və CQBKG layihələrinin idarə edilməsi ilə bağlı müəyyən bənzərlikləri qeyd edir. Həm CQD, həm də BP TANAP və CQBKG layihələrində birbaşa iştirak edir (1-ci cədvələ bax). Həmçinin, CAO qeyd edir ki, TANAP-da iştirak payına malik Azərbaycan hökuməti və korporativ qruplar (ARDNŞ, BP və TPAO) birgə CQBKG-də 64,5% paya sahibdir.

CAO MİGA-nın ƏS tələblərinə uyğun nəticələrin əldə olunması məqsədilə münasibətlərə təsir imkanının daxil edilməsi məqsədilə Fəaliyyət Standartlarında istifadə olunan "təsir" konsepsiyasını anlayır.

Bu mənada, CAO-nun MİGA-nın CQBKG-yə əlavə mexanizm kimi təsir göstərmək, habelə Fəaliyyət Standartlarına uyğun nəticələrin əldə olunmasına dəstək üçün məlumat mübadiləsi məqsədilə kreditorlarla və ya TANAP pay sahibləri ilə işləməyin heç bir perspektivi olmadığı qənaətinə gəlməsinə səbəb oluş təhlilin düzgünlüyü ilə bağlı müəyyən sualları vardır.

## MİGA Layihə monitorinqi

MİGA zəmanət müqaviləsini imzaladıqdan sonra aşağıdakı fəaliyyətlərlə layihəni monitorinq edir: (a) ƏMSQP-yə uyğun olaraq ƏSK riskləri və (və ya) təsirlərinə malik olan biznes fəaliyyətlərinin monitorinqi üzrə müntəzəm proqramın icrası; və (b) icra göstəricilərinin sifarişçinin İllik Monitorinq Hesabatı və ƏS Fəaliyyət Planının yenilənməsi (Dayanıqlılıq siyasəti, paraqraf 43) əsasında yoxlanması. MİGA sahə səfərləri həyata keçirə və ƏS-ə uyğunluqla bağlı məlumatların yoxlanması üçün təhlil apara bilər (ƏMSQP, 2.1). ƏMSQP-də qeyd olunur ki, monitorinq vəzifələrinə "CAO/Yoxlama paneli və ya QHT/VCT daxil olmaqla hər hansı maddi ƏS problemləri olduqda problemin araşdırılması daxildir" (paraqraf 2.1).

Monitorinq xarakterli sahə səfəri 2018-ci il oktyabr ayının əvvəllərində TANAP layihəsinin Türkiyə ərazisinə düşən hissəsinə həyata keçirilmişdir. Bu səfər MİGA-nın 2016-cı il sentyabr ayında həyata keçirdiyi araşdırma səfərindən sonra ilk belə səfər olmuşdur. Bu səfərlə bağlı MİGA-nın sənədlərinə əsasən, ƏS risklərinin tənzimlənməsi qənaətbəxş hesab edilmişdir. Əlaqəli layihələrin MİGA zəmanətindən kənarda olduğu faktı nəzərə alınmaqla, sahə səfərində əsas diqqət TANAP layihəsinə yönəldilmiş və CQBKG də daxil olmaqla əlaqəli layihələr kənarda qalmışdır. MİGA sənədlərində CAO-ya təqdim olunan şikayətin qısa təsviri verilmiş və səfərdən qısa zaman sonra sənədləşdirilmişdir.

---

əlaqəli layihələrlə bağlı Dünya Bankı ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirmişlər. MİGA qeyd edir ki, CQD BMİ əməkdaşlığına öz dəstəyini ifadə etmişdir.

Bu şikayətdə qaldırılan məsələlər 2018-ci il avqust ayında açıq hesabat şəklində yayımlanmışdır[24]. Lakin CAO bu məsələnin sifarişçi qarşısında qaldırıldığını təsdiq etmək üçün MİGA tərəfindən heç bir sənəd əldə etməmişdir.

### MİGA Layihə bağlanışı

2019-cu ilin avqust ayında CQD Kreditorlara borcunu ödədikdən sonra MİGA-nın zəmanəti ləğv olunmuşdur. MİGA-ya əsasən, ləğv barədə sənəd tamamlanmış, lakin ƏS ilə bağlı məlumatlar orada öz əksini tapmamışdır; qeyd olunmuşdur ki, CAO işi bağlanmamışdır.

## IV. CAO-nun qərarı

CAO-nun uyğunluq qiymətləndirməsinin məqsədi uyğunluqla bağlı araşdırmaların ətraf mühit və sosial nəticələrlə bağlı və ya MİGA-nın sistematik əhəmiyyətli məsələləri ilə bağlı ciddi məsələlər ortaya qoyan layihələrlə əlaqədar aparılmasından ibarətdir. Araşdırmanın başladılıb-başladılmayacağına qərar verərkən CAO şikayətdə qaldırılan problemlərin miqyası, MİGA-nın bu məsələlərlə bağlı ƏS göstəricilərinin ilkin qiymətləndirmə nəticələri, habelə MİGA-nın tələblərinə adekvat sualların mövcudluğu və komplayns araşdırmasının müvafiq reaksiya olub-olmamasının ümumi qiymətləndirilməsi kimi faktorları ölçür.

Bu halda şikayətdə iqtisadi yerdəyişmə, məlumatların açıqlanması, icmanın iştirakı, o cümlədən yaşayış şəraitinin bərpası və təzminatla bağlı məsləhətləşməyə dair problemlər qaldırılır. Şikayətin əsasında duran faktlar məhdud olduqda bu məsələlər əhəmiyyətli xarakterə malik ola bilər, belə ki, onlar çox sayda ev təsərrüfatının maddi vəziyyətinə təsir göstərə bilər.

MİGA CQBKG layihəsini TANAP layihəsinin yardımçı mexanizmi kimi qəbul edir. Lakin MİGA müəyyən etmişdir ki, ƏS tələbləri CQBKG-ni əhatə edəcək dərəcədə genişləndiriləcəkdir. Bu qərar ona əsaslanır ki, TANAP-ın əməliyyat nəzarətinin və ya təsirinin olmadığı üçüncü tərəflər CQBKG-nin fəaliyyətini təmin edəcəkdir. CQBKG və TANAP-ın cavabdehlik strukturu nəzərə alındıqda CAO-nun MİGA-nın bu qənaətə gəlməsinə səbəb olmuş təhlilin dəqiqliyi ilə bağlı sualları vardır.

MİGA nə 2015-ci ildə aparılmış təhlildə, nə də MİGA layihəsinin monitorinqi çərçivəsində şikayətlə (CQBKG tərəfindən istifadə olunan torpağa görə nəzərdə tutulan təzminatla bağlı icmanın şikayətləri) əlaqədar məsələlərlə bağlı ictimai hesabat verməmişdir. Bu reaksiyanın olmaması MİGA-nın CQBKG üzərində TANAP-ın əməliyyat nəzarəti və ya təsirə malik olmadığı barədə qənaətə gəlməsinə gətirib çıxarmışdır.

Bununla belə, CAO müəyyən etmişdir ki, şikayətin araşdırılması bu şikayətə adekvat reaksiya deyil. CAO aşağıdakıları nəzərə almışdır: (a) bu şikayətin verilməsinə səbəb olan köçürülmə prosesi MİGA-nın 2018-ci ilin iyun ayında TANAP layihəsi üçün zəmanət verməsinə qədər baş vermişdir; (b) MİGA-nın zəmanəti 2019-cu ilin avqust ayında ləğv olunmuşdur; və (c) BYİB TANAP-la “əlaqədar layihələrin”, o cümlədən CQBKG-nin müdafiə siyasətinin geri götürülməsi ilə bağlı İcraçı Direktorlar Şurasına müraciət etmişdir.

[24] Yaşıl Alternativ. 2018-ci il. Enerji infrastrukturu çərçivəsində sosial, iqtisadi və ekoloji hüquqların pozulması. Cənubi Qafqaz ölkələrinin misalında. Səhifə 34. Aşağıdakı keçidə bax: https://bit.ly/GreenAlt-2018-CQBKG.